*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin ELMİ ƏSƏRLƏRİ № 30, 2021*
*УЧЁНЫЕ ЗАПИСКИ Азербайджанского Государственного Университета Культуры и Искусств № 30, 2021*
*SCIENTIFIC NEWS of Azerbaijan State University of Art and Culture № 30, 2021*

# TƏSVİRİ SƏNƏT

**UOT 75**

**Ziyadxan Əliyev**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**Əməkdar incəsənət xadimi,**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent**
**E-mail: ziyadxan_ali@mail.ru**

## XALQ RƏSSAMI ARİF HÜSEYNOVUN YARADICILIGINDA MİNİATÜR ƏNƏNƏLƏRİ

**Xülasə**: Məqalə qədim miniatür ənənələrinin Xalq rəssamı Arif Hüseynovun əsərlərində yaradıcılıqla istifadəsinə həsr olunmuşdur. Bütün fəaliyyəti boyu müxtəlif bədii və texniki vasitələrdən istifadə edən rəssam müstəqillik illərində miniatür ənənələrinin ölkəmizdə geniş yayılması işinə başçılıq etməklə, rəssamların müxtəlif nəsilləri nümayəndələrinin qədim klassik üsluba cəlb olunmasında duyulası rol oynamışdır. Onun dəzgah və kitab qrafikası sahəsində yaratdığı çoxsaylı əsərlərdə miniatür estetikasının çox müasir və orijinal təfsirinə rast gəlmək mümkündür. Belə əsərlər üçün səciyyəvi olan duyulası stilizə, lakonik-dekorativ bədii interpretasiya, nikbin kolorit onun müxtəlif süjetli kompozisiyalarının estetik yük daşıyıcılarıdır. Bu mənada onun "Novruz", "Azərbaycan nağılları", "Aşıq ədəbiyyatı antologiyası", "Qəhrəmanlıq eposları", "Məhəbbət dastanları" silsilələrinin, eləcə də çoxsaylı dəzgah qrafikası nümunələrinin adını çəkmək olar.

**Açar sözlər**: miniatür, qrafika, üslub, ənənə, müasirlik, stilizə, təzad, fəlsəfi, lirik.

Çoxəsrlik tarixə və zəngin bədii ənənələrə malik olan qədim miniatürün orta əsrlərdə təsviri və dekorativ-tətbiqi sənətdə geniş yayılmış estetikası yalnız XX əsrin birinci yarısında əsaslı şəkildə realizm ənənələri ilə əvəzlənmiş oldu. Sovet dönəmi Azərbaycan təsviri sənətində "sosialist realizmi" bədii prinsipi hakim bədii ifadə vasitəsi hesab olunsa da, ilk növbədə onun sosializmin uğurlarını təbliğ edən ideologiyaya bağlı olmasından qaynaqlanırdı. Bununla belə həm elə yeni əsrin əvvəllərində, həm də sonrakı dövrlərdə tövsiyə olunan məlum prinsipin çərçivəsində miniatür ənənələrindən yaradıcılıqla istifadə edən, sənətkar "mən"ini sərgiləməyə nail olan rəssamlar kifayət qədər olmuşdur. Onlardan biri də ötən əsrin yetmişinci illərində yaradıcılığa başlayan Xalq rəssamı Arif Hüseynov (1943) olmuşdur.

Yeri gəlmişkən deyək ki, XX yüzilliyin ilk qərinəsində gənc rəssamların milli qaynaqlara müraciəti nə qədər sovet ideoloqları üçün arzuolunmaz idisə,

əsrin son qərinəsində isə rəsmi dairələr tərəfindən miniatür ənənələrinin öyrənilməsi və təbliği gündəliyə gətirildi. İçərişəhərdə "Azərbaycan miniatür mərkəzi"-nin açılışı, "Peykər" yaradıcı qrupunun təşkili, Azərbaycan Rəssamlar İttifaqında isə "Miniatür və kitab qrafikası" bölməsinin yaradılması zamanında xalqımızın "tanınma nişanı"na çevrilən miniatürün inkişafına nisbi də olsa təsir göstərmiş oldu. Sonralar bu istiqamətdə görülən işlər duyulası dərəcədə səngidi və yalnız müstəqillik illərində təşkil olunan "Şərqdən-Şərqə" (2008 və 2010) sərgiləri ilə rəssamların qədim üslubun yeni keyfiyyət əldə etməsi yönündə axtarışlarının ümidverici olduğunu sərgiləmiş oldu. Əlavə edək ki, həmin sərgilərin keçirilməsinin təşkilatçısı da bilavasitə A.Hüseynov olmuşdu.

"Onun ictimaiyyətə təqdim etdiyi rəngkarlıq və qrafika əsərləri qədim miniatürlərlə anım yaratmaqla yanaşı, həm də bədii-texniki icrasına görə duyulası dərəcədə orijinal idilər. Şərti-dekorativ forma-biçimlərin müxtəlif ölçülü yaxı-zərrəciklərlə ifadəsi milli təsviri sənətimizdə yeni və özünəməxsusdur, desək, yanılmarıq" (2,178)

Yaradıcılığı əsasən dəzgah və kitab qrafikasını əhatə edən Arif Hüseynovun müraciət etdiyi mövzular çox müxtəlif olduğu kimi, onun tətbiq etdiyi texnikalar da kifayət qədər dəyişkən olmuşdur. Bir qayda olaraq ağ-qara cizgilərdən bədii-texniki vasitə kimi istifadə rəssamın yaradıcılığında müşahidə olunan üslub evolyusiyası duyulası dərəcədə müasir tutumlu olmuşdur. Yalnız müstəqillik illərində onun bədii həlli klassik Azərbaycan miniatürü bədii ənənələrindən qaynaqlanan əsərlərin yaradılmasına başlanmışdır. Bu mənada onların bilavasitə Azərbaycan xalq nağılları və milli adət-ənənələrlə bağlı olması da təbii qəbul olunur.

Sovet dönəmində - ötən əsrin altmışıncı illərində Novruzun ümumxalq bayramı kimi qeyd olunmasına nail olunandan sonra, onun tarixinə rəssamlarımızın müxtəlif nəsillərinin bədii münasibətini şərtləndirmiş oldu. Bunun nəticəsində xalqımız üçün çox əziz olan bu bayramın tarixini, onun qan yaddaşımızda əbədiləşdirməsinə səbəb olan ənənələrini əks etdirən əsərlərdən ibarət bədii "Novruz ensiklopediyası" yarandı. Arif Hüseynovun "Novruz" silsiləsi bu mövzuya Azərbaycan təsviri sənətində bu vaxta qədər mövcud olan bütün bədii yanaşmalardan köklü şəkildə fərqlənir desək, həqiqəti söyləmiş olarıq. Bu fərq həm onun sayında, həm də bədii tutumundadır. Daima axtarışda olan rəssamın əvvəlkindən fərqli siyasi şəraitdə həyat sürdüyümüz yeni əsrdə miniatür üslubu ənənələrinə tapınan "Novruz"lu lövhələri elə ilk növbədə üslub yeniliyinə-bədii ifadə vasitələrinə görə diqqət çəkir. Bu mənada onun Novruz bayramı ilə yanaşı, digər folklor mərasimlərinə, adət-ənənəyə, maddi-mədəniyyət nümunələrinə həsr etdiyi silsilə dəzgah qrafikası və rəngkarlıq əsərlərini tarixi milli mədəniyyətimiz qədər qədim olan miniatür ənənələrinə yeni və yaradıcı baxış hesab etmək olar. Bu mənada rəssamın "Novruz" silsiləsi tarixən qan yaddaşımızda əbədiləşən və hər bahar gəlişi ilə kiçikdən böyüyə kimi hər kəsi duyğulandırmaq və xəyalları-

nı pərvazlandırmaq gücündə olan forma-biçimdə təqdim olunduğundan çağdaş Azərbaycan təsviri sənətinə layiqli töhfə kimi qəbul olunurlar. Onun yaratdığı "Novruz" qrafik sılsiləsini sözün əsl mənasında bayramın bədii ensiklopediyası hesab etmək olar. Belə ki, burada neçə - neçə bayram adət-ənənəsi ilə yanaşı, oyunu - əyləncəsi də yer almışdır. Rəssamın "Kəndirbazlar", "Qulaq falı", "Yumurta döyüşü", "Novruzda", "Nağıl gecəsi", "Əjdaha ili", "Od çərşənbəsi", "Su çərşənbəsi", "Torpaq çərşənbəsi", "Yel çərşənbəsi" və s. qrafik əsərlərində Novruzun bənzərsiz ruhunu duymaq mümkündür. Bu qrafik nümunələrin bədii həllində miniatür estetikasından yaradıcılıqla istifadə həmin əsərlərə özünəməxsus milli ruh bəxş etmişdir desək, həqiqəti söyləmiş olarıq. Rəssamın Novruz ünvanlı əsərlərində qədim üsluba tapınmağının səbəblərindən biri bayramla bədii vasitənin bilavasitə nikbin ovqata köklənmiş ümumi tutumu olmuşdur. Əlavə edək ki, miniatürlərə xas olan bədii stilizə və kolorit şuxluğunun A.Hüseynovun əsərlərindəki təfsiri həm də onların məna-məzmun yükünün açımına yönəldiyindən, Novruzlu motivlər kifayət qədər cəlbedici görünürlər. Milli geyimli uşaqların tonqal üzərindən atlanmaları ("Od çərşənbəsi"), papaqlı oğlanların qədim şəhərin fonunda yumurta döyüşdürmələri ("Yumurta döyüşü"), gənc qızın bayramda qapıdan içəridə baş verənlərə qulaq kəsilməsi ("Qulaq falı"), ailənin nağıl aləminə bələnmələri ("Nağıl gecəsi") rəssam təqdimatında bayramın özü kimi ovsunlayıcıdırlar.

Rəssamın müstəqillik illərində ərsəyə gətirdiyi "Azərbaycan nağılları" qrafik silsiləsi kifayət qədər əhatəli olmuşdur. Nağılların özü kimi sirli-soraqlı olan bu rəsmlərdə təqdim olunan süjetlər və dadlı-duzlu obrazlar müəllifin təxəyyülünün nəticəsi olmaqla, kifayət qədər oxucu hisslərini duyğulandırmaq gücündədir desək, yanılmarıq. Bunu onun "Ağ atlı oğlan", "Cırtdan", "Nar qız", "Göyçək Fatma", "Məlikməmmədin nağılı", "Ovçu Pirim", "Dərzi şagirdi Əhməd" və s. nağıllara verdiyi miniatür üslublu bədii şərhlər də təsdiqləyir.

Onun "Azərbaycan nağılları"na davamlı olaraq çəkdiyi illüstrasiyalarda ədəbi mətnin tutumuna müvafiq hadisələrə fantastik baxış bucağı, bədii həllində şaşırdıcı rəng və forma-biçim ifadəsi görünməkdədir. Məkanları və obrazları bədii stilizə və şux rəng çalarları ilə əyaniləşdirən rəssam, görünənlərin miniatür estetikasına yaradıcı münasibətin uğurlu nəticəsi olduğuna tamaşaçısını-oxucusunu inandırır. Nağılların özü kimi sirli-soraqlı olan bu rəsmlərdə təqdim olunan süjetlər və dadlı-duzlu obrazlar müəllifin təxəyyülünün nəticəsi olmaqla, kifayət qədər oxucu hisslərini duyğulandırmaq gücündədir desək, yanılmarıq. Onun "Azərbaycan nağılları"na davamlı olaraq çəkdiyi illüstrasiyalarda ədəbi mətninin tutumuna müvafiq hadisələrə fantastik baxış bucağı, bədii həllində şaşırdıcı rəng və forma-biçim ifadəsi görünməkdədir. Əslində, A.Hüseynovun bu yanaşması dillər əzbəri olan mətnlərə və klassik əski bədii üsluba yeni və özünəməxsus baxışın nəticəsi kimi özündə ənənə və müasirliyi birləşdirdiyindən, bu qrafik

nümunələr yüksək dəyər kəsb etməklə, zamansızlığa qovuşmuş kimi görünürlər.

"Xalq Bank"ın 2017-ci ildə nəşr etdiyi "Aşıq ədəbiyyatı antologiyası" üç-cildliyinə illüstrasiyalar çəkən Arif Hüseynov, əslində, zamanında özünün "Azərbaycan nağılları"na göstərdiyi bədii münasibətlə anım yaradan ifadə vasitələrini palitrasına gətirməklə məntiqli addım atdığını təsdiqləmişdir. Qədim mədəniyyətimizin və şifahi xalq ədəbiyyatımızın bu iki sahəsindəki özünüifadə formalarındakı oxşarlığı incəliklə duyub, dəyərləndirən rəssam, onlardakı bədii yığcamlığı, rəmz və işarələrlə "danışmağı" rənglərə-cizgilərə köçürməyə nail olmuşdur. Bunu həm "Aşıq poeziyası", həm də "Qəhrəmanlıq dastanları" və "Məhəbbət dastanları" cildlərinə daxil edilmiş çoxsaylı illüstrasiyalarda izləmək mümkündür. Doğrudan da, müəllifin hər bir lövhənin bədii həlli üçün tapdığı "zərrəciklər məcmusu"nu andıran cizgi bütövlüyü qeyri-adi və yeni qəbul olunur.

Elə "Aşıq poeziyası"nın ilk illüstrasiyası olan "Dədə Qorqud"da müəllifin müdriklər müdrikinin obrazını naxış zərrəciklərindən ərsəyə gətirməsində, əsərin bədii-mənəvi tutumunun açımına yönəli məqamlar kifayət qədərdir. Varlığı başdan-ayağa qiymətli kəlamlar – soydaşlarının həyat tərzinin mənalı fəaliyyətə yönəldilməsinə bələmiş niyyətlərlə zəngin olan Dədə Qorqudun bu cür təqdimatı cəlbedici və inandırıcıdır. Dədə Qorudun əli qopuzlu, bəyaz saçlı, işıqlı çöhrəsinin günəşlə əlaqəli – gül-çiçəkli məkanda təqdimatında da onun bütün mənalarda ilahi tərəfindən nurlandırıldığına bədii işarə duyulmaqdadır. Əsərin ağ-mavi və qara-qırmızı çalarlarda bədii həlli də tamaşaçı ruhuna duyğulandırıcı ovqat bəxş etmək istəyindən qaynaqlanmışdır...

"Aşıq poeziyası" kitabını bəzəyən digər illüstrasiyaları da nəşrdə yer almış müəlliflərin poetik dünyasına "bədii işıq" salan və miniatür ruhuna bələnmiş qrafika nümunələri saymaq olar. Bu mənada "Könül söhbəti" (Varxiyanlı Məhəmmədə həsr olunub), "Ağrı dağı" (Şair Məmmədhüseynə həsr olunub), "Aşıq Ələsgər"(Aşıq Ələsgərə həsr olunub), "Xanım aşıq" (Aşıq Bəstiyə həsr olunub), "Şirvan aşıqları" (Aşıq Mirzə Bilala həsr olunub), "Kəlağayılı gözəl"(Aşıq Mirzə Bayramova həsr olunub), "Qız-bənövşə" (Aşıq Xındı Məmmədə həsr olunub), "Borçalı aşıqları" (Aşıq Hüseyn Saraclıya həsr olunub), "Göyəzən dağı" (Aşıq Əhməd Rüstəmova həsr olunub), "Ana ceyran" (Şair Paşa Salahlıya həsr olunub), "Ana Kür" (Şair Bəhmən Vətənoğluna həsr olunub), "Düzülsün məclisə Lənkəran çayı" (Aşıq Əkbər Cəfərova həsr olunub), "Dərviş aşıq" (Aşıq Urfan Əliyə həsr olunub) və "İrəvan. Göy məscid" (Naməlum aşığa həsr olunub) adlı illüstrasiyaların adını xüsusi qeyd etmək istərdik. Rəssamın bu qrafika nümunələrində kompozisiya elementi kimi istifadə etdiyi Göyəzən dağının, Kür çayının, Qırmızı körpünün, söyüd ağacının, çay plantasiyasının, memarlıq tikilisinin miniatür estetikalı təsvirləri oxunan misraları əyaniləşdirməklə yanaşı, həm də Arif Hüseynovun hər bir müəllifin poetik dünyasına nüfuzetmə gücünü əks etdirir...

Rəssamın "Qəhrəmanlıq dastanları" kitabına çəkdiyi illüstrasiyalarda da ədəbi mətnə bədii-obrazlı nüfuzetmənin özünəməxsus - qədim miniatürlərlə səsləşən bədii təzahürlərini görə bilərik. Onun "Koroğlu", "Qaçaq Kərəm", "Qara Tanrıverdi", "Qaçaq Süleyman", "Hacı Tağı", "Qandal Nağı" və "Səttarxan" dastanlarının ayrı-ayrı məqamlarının bədiiləşdirilməsində Arif Hüseynovun yaradıcı mövqeyi cəlbedici və yaddaqalandır.

Arif Hüseynovun "Məhəbbət dastanları" kitabına çəkdiyi illüstrasiyalarda isə mövzunun lirik-poetik bədii şərhinə üstünlük verilmişdir. Rəssamın ovqat dəyişkənliyi ilə seçilən ədəbi mətnlərə verdiyi miniatürsayağı bədii şərhlər diqqətçəkəndir. Onun "Aşıq Qərib", "Qurbani", "Şah İsmayıl", "Abbas və Gülgəz", "Əsli və Kərəm", "Tahir və Zöhrə", "Arzu və Qənbər", "Valeh və Zərnigar", "Nəcəf və Pərzad" və digər dastanlara əyanilik gətirən qrafik rəsmlərində aşiqlərin təzadlarla dolu yaşantıları cəlbedici olduğu qədər də, duyğulandırıcıdır. Miniatür ruhlu bu illüstrasiyalarda müəllifin məna-məzmun daşıyıcısı kimi seçdiyi obrazlar, memarlıq tikililəri, təbiət motivləri və maddi-mədəniyyət nümunələri bədii-estetik və lirik-fəlsəfi tutumuna görə çoxqatlı və təsirlidirlər. Bu qrafik nümunələrdə sözlə təsvirin vəhdətinin uğurundandır ki, ənənə və müasirliyin bədii qovşağının əksi olan bu illüstrasiyalar mətnin ruh daşıyıcısı kimi uzun müddət unudulmurlar. Həm bu, həm də Arif Hüseynovun aşıq ədəbiyyatı ünvanlı digər qrafik əsərləri bütünlükdə, müasir Azərbaycan kitab qrafikasına layiqli töhfə kimi qəbul olunurlar...

Rəssamın kitablarla bağlı olmayan, müstəqil xarakterli qrafik lövhələrində də qədim üslubun estetikasından uğurla istifadə olunduğunu görmək mümkündür. Onun "Üzeyir Hacıbəyli dünyası", "Aşıq", "Nar bayramı", "Nərd oyunu", "Aya səyahət", "Xalçaçı", "Simurq quşu" və digər qrafik əsərlərində bədii stilizənin şərtiliyə bələnmiş estetikasında həm də cəlbedici düşündürücülüyün miniatürsayağı təqdimatı mövcuddur. Odur ki, müəllifin həm yuxarıda şərh etdiyimiz, həm də müstəqil xarakterli əsərlərinin miniatür ruhuna bələnməsini, həmin qrafik nümunələrin zamansızlığa qovuşmasını şərtləndirmişdir desək, həqiqəti söyləmiş olarıq.

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan incəsənəti (monoqrafiya). Bakı, İşıq, 1992. 344 səh.
2. Əliyev Z. Arif Hüseynov. Bakı, Şərq – Qərb, 2014, 342 səh.
3. Kərimov K. Azərbaycan miniatürləri. Bakı, İşıq,1980. 220 səh.
4. Гасанзаде Дж. Тебризская миниатюрная живопись. Баку, Оскар, 2000. 592 стр.
5. Каджар Ч. Искусство Азербайджана. Баку, Оскар, 2010, 348 стр.

**Зиядхан Алиев**

## Традиции миниатюры в творчестве народнго художника Арифа Гусейнова

**Резюме:** Статья посвящена творческому использованию древних традиций миниатюры в творчестве народного художника Азербайджана Арифа Гусейнова. На протяжении всей своей деятельности художник использовал различные художественные и технические средства и, наконец, за годы независимости возглавил процесс широкого распространения традиций миниатюры в нашей стране, сыграл значительную роль в привлечении разных поколений наших художников к древнему классическому стилю. В его многочисленных графических работах созданные в области станковой и книжной графики можно встретить современные и оригинальные интерпретации эстетики миниатюры. Характерные для таких произведений такие художественные особенности как чувственная стилизация, лаконично-декоративная художественная интерпретация, оптимистический колорит, которые являются эстетическими носителями разнообразных сюжетных композиций художника. В этом смысле можно назвать его серии «Новруз», «Азербайджанские сказки», «Антология ашугской литературы», «Героические эпосы», «Эпосы любви», а также многочисленные примеры станковой графики.

**Ключевые слова**: миниатюра, графика, стиль, традиция, современность, стилизация, контраст, философское, лирическое.

**Ziyadkhan Aliyev**

## Miniature traditions in the works of people`s artist Arif Huseynov

**Summary:** The article is dedicated to the skillful use of ancient miniature traditions in the works of People`s Artist of Azerbaijan Arif Huseynov.
Throughout his career, the artist used various artistic and technical means in his works, led the process of spreading miniature traditions in our country during the years of independence and played an important role in the interest of different generations of our artist in the ancient style.

In his numerous works in the field of easel and book graphics, it is possible to find a modern and unique interpretation of miniature aesthetics. The artistic features that characterize such works – stylized, laconic-decorative artistic interpretation and optimistic color scheme – are clearly visible carriers of the aesthetic burden of the artist`s various plot compositions.

In this sense, we can mention his series “Novruz”, “Azerbaijan fairy tales”, “Anthology of Ashug literature”, “Heroic epics”, “Epics of love” as well as numerous examples of easel graphics.

**Key words**: miniature, graphics, style, tradition, modernity, stylized, contrast, philosophical, lyric





